***Kamal Fərhadoğlu***

## *Xocalı*

Düşmən caynağında görəndə səni,
Axı necə gülsün üzüm, Xocalı.
Hələ də sinəsi, qəlbi dağlısan,
Bu dərdə mən necə dözüm, Xocalı.

Çəkildi sinənə Əlifin dağı,
Qəsdinə yamanca girmişdi yağı.
Qırğın günü hamı söylədi ağı,
Tez soldu baharım, yazım, Xocalı.

Aqilə, Tofiqə olmadı kömək,
İgidlər hər yerdə döyüşdü tək-tək.
Əlimiz yetmədi hayına yetək,
Sənə qəmli nəğmə yazım, Xocalı.

Fevralın iyirmi beşi gecəsi,
Göylərə ucaldı xalqın naləsi,
Sinə dağlayırdı körpənin səsi,
Onda nələr gördü gözüm, Xocalı.

Hələ ki, canımdan bezmirəm sənsiz,
Bağçamda bir gül də üzmürəm sənsiz,
Ayrılıq oduna dözmürəm sənsiz,
Qürbətdə mən necə gəzim, Xocalı.

Mənə doğma idin, doğma anam tək,
Hay salıb, tələsib dadına yetək,
Ot olub dağında, daşında bitək,
Sənə qurban olsun özüm, Xocalı.

Bir ana qayğısı görürdüm səndə,
Qəfil ayrı düşüb qalmışam gendə.
Gəzib-dolaşdığım düzdə, çəməndə,
Nədən kəsiləydi izim, Xocalı.

Düşmən caynağından azad olanda,
Zəfər bayrağını ələ alanda,
Sürünəydim dağda, daşda o anda,
Əziləydi, qolum, dizim, Xocalı.

***Hacıkənd, Fevral-2004***

***Fərhadoğlu K. Xocalı : şeir //***
***Dağlarda nisgilli bir ağım qalıb. - Bakı***
***: E.L., 2008. - S.16-17.***